






# Heydər Əliyev ideyalarına əbədi ehtiram nümunəsi

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibəti ilə Nəsimi rayonunda silsilə tədbirlər keçirilmişdir. Rayon ərazisində genişmiqyaslı abadlıq, quruculuq, yenidənqurma və yaşıllaşdırma işləri aparılaraq bir sıra binalar, küçələr, istirahət guşələri və parklar əsaslı təmir olunub, "Abad həyat" layihəsi çərçivəsində zəruri işlər aparılıb, sakinlərin rifahının daha da yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilib.**

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar rayonun idarə, müəssisə və təşkilatlarında, elm, təhsil və səhiyyə müəssisələrində keçirilən silsilə tədbirlərdə ulu öndərin əziz xatirəsi dərin hörmət və ehtiramla yad edilmişdir. Silsilə tədbirlər çərçivəsində Nəsimi rayon rəhbərliyinin, idarə və təşkilatların, ali və orta təhsil müəssisələrinin, veteran və gənclər təşkilatlarının, din xadimlərinin, rayon ictimaiyyətinin nümayəndələrinin, Milli Məclis deputatlarının, elm və mədəniyyət xadimlərinin, KİV nümayəndələrinin və çoxsaylı qonaqların iştirakı ilə M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev - xalqın qəlbində və müqəddəs diləklərində yaşayan lider" adlı təntənəli tədbir keçirilmişdir.

Tədbirdə çıxış edən Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov ümummilli lider Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz tarixi xidmətlərindən danışıb. Bildirib ki, ümummilli lideri mənsub olduğu xalqa bəxş edən günün özü də ümummilli önəm daşıyır. Milli dövlətçiliyin inkişafını və qüdrətlənməsini təmin edən dahi şəxsiyyətin həyatı və fəaliyyəti tarixin özü ilə eyniləşir, bu dövrün başlıca mahiyyətini təşkil edir. Heydər Əliyev çağdaş Azərbaycanın tarixinin yönünü və məzmununu müəyyən etməklə zamanın fövqünə yüksəlib, əbədiyyət qazanıb. O, xalqının taleyində dönüş yaradaraq ölkəsini tənəzzüldən tərəqqiyə qovuşdurub.

Dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır. Cəmiyyətdən daim dəstək alan, ənənə ilə novatorluğun, müasir qloballaşma dövründə istənilən məsələ üzrə Azərbaycanın milli maraqlarının sadiq təminatçısı kimi çıxış edən Prezident İlham Əliyev ulu öndərin layiqli davamçısı olaraq beynəlxalq miqyasda da ölkəmizin yeganə və alternativsiz lideri kimi qəbul edilir. Prezident İlham Əliyevin rəhbərliyi altında həllini gözləyən istənilən dövlət əhəmiyyətli məsələ ilə bağlı konkret proqramlar hazırlanır və onlar uğurla icra edilir. Prezident İlham Əliyevin qazandığı ümummilli etimad və beynəlxalq dəstək Heydər Əliyev siyasi irsinin böyük qələbəsi, ölkəmizin isə uğurlu gələcəyinin qarantıdır.

Tədbirdə İnsan Hüquqları üzrə müvəkkil Elmira Süleymanova, Auditorlar Palatasının sədri Vahid Novruzov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Milli Məclisin deputatları Fəttah Heydərov, Eldar İbrahimov, Hadi Rəcəbli, Məlahət







İbrahimqızı, Ülvi Quliyev, Çingiz Qənizadə, Sevinc Hüseynova, Vahid Əhmədov, Cavanşir Paşazadə, Elman Nəsirov, Mahir Aslanov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva və digər rəsmi qonaqlar iştirak edirdilər.

Azərbaycan Televiziyasının Gülarə Əliyeva adına "Dan ulduzu" ansamblının iştirakı ilə keçirilən konsertdə Fikrət Əmirovun, Müslüm Maqomayevin, Cahangir Cahangirovun, Emin Sabitoğlunun, Tofiq Quliyevin əsərləri ifa edilmiş və xalq artisti Mənsum İbrahimovun, əməkdar artistlər Zakir Əliyevin, İlqar Mura-










dovun, Cahangir Qurbanovun, tanınmış incəsənət nümayəndələri Rövşən Əzizin, Pərviz Qasımovun, Rəşad İlyasovun, Fəridə Hüseynovanın, Səbinə Ərəblinin, Ayşən Mehdiyevanın, Sərxan Bünyadzadənin və digərlərinin ifaları, xüsusilə əməkdar artist Anar Şuşalının ifasında Sevil Əliyevanın "Ana" mahnısı iştirakçılar tərəfindən maraqla qarşılanmışdır. Tədbir boyunca Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən slayd göstərilmişdir.

Nəsimi Rayon İcra Hakimiyyətinin Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci ilə birgə reallaşdırdığı növbəti tədbirdə kollecin direktoru, əməkdar incəsənət xadimi, professor Nazim Kazımov çıxış edərək bildirib ki, ulu öndər Heydər Əliyev müstəqilliyimizin ilk dövründə Azərbaycanın gələcək uğurlu inkişafının ideoloji prinsiplərini dəqiq müəyyənləşdirib.

Ümummilli liderin müdrik siyasəti ilə əsrlər boyu formalaşan Azərbaycanın çoxmədəniyyətlilik ənənəsi bu gün də yaşayır və inkişaf etdirilir. Dahi öndərin milli mədəniyyətimizin inkişafında xidmətləri ölçüyəgəlməzdir.

Sonra Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov ümummilli lider Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz tarixi xidmətlərindən danışaraq bildirib ki, milli dövlətçiliyin inkişafını və qüdrətlənməsini təmin edən tarixi şəxsiyyətin həyatı və fəaliyyəti bu dövrün başlıca mahiyyətini təşkil edir.



Natiq bildirdi ki, dövrün bu dahi şəxsiyyətə bəxş etdiyi nadir keyfiyyətlər sayəsində o, tarixi hadisələrin gedişini irəlicədən görə bilib, Azərbaycanın dünəni, bu günü və sabahı üçün olduqca mühüm önəm daşıyan qərarlar qəbul edilən zaman düzgün mövqe tutub, qətiyyətlə hərəkət edib. Belə dərin zəka, dönməz iradə və tükənməz enerji bəyanat və çıxışlarında, qərarlarında, mürəkkəb vəziyyətlərdə atdığı addımlarda həmişə ona uğur və nüfuz gətirib.

"Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" qiymətini alan Prezident İlham Əliyev isə Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. O, Azərbaycanın çağdaş tarixinə yeni missiya ilə daxil olub. Dövlət başçısı qısa müddətdə Azərbaycanın inkişafına, beynəlxalq nüfuzunun yüksəlməsinə nail olmaqla ölkəmizin ən yeni tarixinə qızıl hərflərlə yazılan uğurların müəllifidir. Möhtərəm Prezidentin rəhbərliyi ilə Azərbaycan özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır.

Sonra kollecin tələbələrinin ifasında bəstəkarlardan Cahangir Cahangirovun, Siyavuş Kəriminin, Tofiq Quliyevin, Vasif Adıgözəlovun mahnıları ifa olunub.

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Nəsimi Rayon İcra Hakimiyyəti H.Sarabski adına 7 nömrəli uşaq musiqi məktəbi ilə birgə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş konsert proqramı təşkil etmişdir.

Rayonun idarə, müəssisə və təşkilatlarında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibəti ilə keçirilən silsilə tədbirlərin davamı olaraq ümumrayon iməciliyi keçirilmişdir. İməcilik zamanı rayonun ayrı-ayrı ərazilərində, mikrorayonlarda, mövcud park və bağlarda, yaşıllıq zolaqlarında 5000-dən artıq müxtəlif növdən olan həmişəyaşıl ağaclar və rayonun mərkəzi küçələrində, 4-cü mikrorayon ərazisində yerləşən Mir Cəlal parkında, Asif Məhərrəmov küçəsindəki parkda, Vaqif prospekti boyunca və digər mövcud park və bağlarda, yaşıllıq zolaqlarında 50000-dən artıq gül kolları əkilmiş, mövcud yaşıllıqlara qulluq göstərilmiş, məhəllələrdə abadlıq və təmizlik işləri aparılmışdır.

Tədbirdə Nəsimi Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi, idarə və müəssisələrin nümayəndələri iştirak etmişlər.

Rayonda son illər ənənə halını almış yaşıllaşdırma işlərində sakinlər, idarə və təşkilatların nümayəndələri yüksək fəallıq nümayiş etdirirlər. Görülən işlərə görə rayon sakinləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildirmişlər.

Azərbaycan xalqının ümummilli lderi Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş tədbirlər çərçivəsində Bakı şəhəri Nəsimi rayonunda səfərdə olan Türkiyə Respublikasının İzmit Bələdiyyəsinin nümayəndələrini rayon icra hakimiyyətinin başçısı Asif Əsgərov qəbul etmişdir. Görüşdə İzmit Bələdiyyəsinin sədr müavini Güray Oruc, Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının sədri, Kocaeli Heydər Əliyev Kültür Evinin rəhbəri Bilal Dündar, İzmit Bələdiyyəsinin digər nümayəndələri, Nəsimi Rayon İcra Hakimiyyətinin məsul əməkdaşları, bələdiyyə sədri, rayonun ictimaiyyət nümayəndələri iştirak etmişlər.

May ayının 9-dan Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Respublikasının İzmit Bələdiyyəsinin nümayəndə heyəti ümummilli lider Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanında şəhidlərin məzarını, türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət etmişlər. Nümayəndə heyətinin üzvləri Heydər Əliyev Mərkəzində olaraq ümummilli lider Heydər Əliyevlə bağlı eksponatlarla tanış olmuşlar.

Ölkəmizə səfərdən məmnunluq hissi keçirdiklərini deyən nümayəndə heyətinin üzvləri Azərbaycanın inkişafından qürur duyduqlarını bildirdilər.

May ayının 10-da 4-cü mikrorayon ərazisində, Cavadxan küçəsinin H.Seyidzadə və M.Kazımovski küçələri ilə kəsişməsində yeni istirahət parkı sakinlərin istifadəsinə verilmişdir. Sakinlərin asudə vaxtlarının səmərəli keçirmələri üçün 0.7 ha sahədə və ətraf ərazidə genişmiqyaslı abadlıq işləri aparılmış, müxtəlif növ həmişəyaşıl ağaclar və gül kolları əkilmiş, mövcud ağaclar budanmış, 1000 kv.m-dən artıq yeni qazon örtüyü və 350 kv.m - dən artıq süni qazon döşənmiş, 500 metrdən artıq suvarma xətti çəkilmişdir.

Parkda sakinlərin istirahəti, uşaqların və gənclərin asudə vaxtlarının səmərəli keçirmələri üçün bütün şərait yaradılmışdır. Belə ki, müasir işıqlandırma sistemi, 2 ədəd söhbətgah, 18 ədəd fitnes avadanlığı quraşdırılmış, 10 ədəd yeni skamyalar qoyulmuşdur. Uşaqlar üçün hər biri 80 kv.m olmaqla 3 ədəd uşaq oyun əyləncə qurğuları montaj olunmuş, park boyunca idman yürüşü üçün zolaq salınmışdır.

Tədbirdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral və xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə Nəsimi rayonunda keçirilən silsilə tədbirlərdə iştirak etmək üçün Bakı şəhərinə səfərə gəlmiş İzmit Bələdiyyəsinin nümayəndə heyətinin üzvləri də iştirak etmişlər.

Bayram əhval-ruhiyyəsi ilə sakinlərin istifadəsinə verilən parkın açılış mərasimində 2 nömrəli uşaq gənclər inkişaf mərkəzinin şagirdlərinin əl işlərindən ibarət sərgi və müxtəlif rəqs nömrələri təqdim edildi.

Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov və İzmit Bələdiyyəsinin nümayəndə heyətinin üzvləri Cavadxan küçəsində müxtəlif növ həmişəyaşıl ağaclar əkdilər.

Tədbirin sonunda rayon icra hakimiyyətinin başçısı Asif Əsgərov və digər iştirakçılar ərazinin sakinləri ilə görüşdülər. Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov ulu öndər Heydər Əliyevin vətən və xalq qarşısındakı misilsiz tarixi xidmətlərindən danışaraq bildirdi ki, ümummilli lideri mənsub olduğu xalqa bəxş edən günün özü də ümummilli önəm daşıyır. Heydər Əliyev xalqının taleyində dönüş yaradaraq ölkəsini tənəzzüldən tərəqqiyə qovuşdurub.

Dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır. Prezident İlham Əliyevin qazandığı ümummilli etimad və beynəlxalq dəstək Heydər Əliyev siyasi irsinin böyük qələbəsi, ölkəmizin isə uğurlu gələcəyinin qarantıdır.

Sakinlərlə görüş zamanı rayon icra hakimiyyətinin başçısı Asif Əsgərov bildirdi ki, yaxın vaxtlarda istifadəyə verilən parkın davamı olaraq Cavadxan küçəsi boyunca əsaslı təmir və abadlıq işləri davam etdiriləcək, yaradılacaq istirahət guşəsi yeni parka əlavə olunacaqdır.

Görüşdə çıxış edən İzmit Bələdiyyəsinin nümayəndə heyətinin üzvləri ulu öndər Heydər Əliyevin "bir millət iki dövlət" sözlərini xatırladaraq Türkiyə Azərbaycan dostluğunda ümummilli lider Heydər Əliyevin xidmətlərindən danışdılar. Bu dostluğun və qardaşlığın davamı olaraq ulu öndərin doğum günü münasibətilə yeni istifadəyə verilmiş parka "İzmit parkı" adı verilməsindən böyük məmnunluq hissi keçirdiklərini ifadə edərək Heydər Əliyev ideyalarını layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.

Sakinlər parkın istifadəyə verilməsinə və ərazidə aparılan abadlıq və yenidənqurma işlərinə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər. Görüşdə qeyd olundu ki, bu gün ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf siyasəti Nəsimi rayonunda da uğurla davam etdirilir.

*Səbinə MƏMMƏDOVA,*
*"Azərbaycan"*